**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

**Q Ə R A R**
**№ 8**

**Bakı şəhəri** **05 iyul 2023-cü il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Ceyhun Vüqar oğlu Cavadzadənin Dövlət Statistika Komitəsi aparatında Sosial statistika şöbəsinin Sosial müdafiə və səhiyyə statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün 2023-cü il iyun ayının 09-da keçirilən daxili müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Cavadzadə Ceyhun Vüqar oğlu Dövlət Statistika Komitəsi aparatında Sosial statistika şöbəsinin Sosial müdafiə və səhiyyə statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-cü il may ayının 03-də elan edilmiş daxili müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2023-cü il iyun ayının 09-da Dövlət Statistika Komitəsinin Sosial statistika şöbəsinin müdiri Elçin Hacı, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Hidayət Zeynalov və müstəqil ekspert Faiq Əhmədovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Cavadzadə Ceyhun Vüqar oğluna müsahibə komissiyasının üzvlərindən E. Hacı 14 bal, H. Zeynalov 16 bal, F. Əhmədov 17 bal vermiş və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1480 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın 5.6-cı bəndinə uyğun olaraq müsahibə komissiyası üzvlərinin namizədin qiymətləndirilməsi zamanı verdiyi ümumi ballar arasında 3 bal fərq olduğuna görə müsahibənin nəticəsi etibarsız hesab edilmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 10.06.2023-cü il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələr zamanı namizədin vəzifəyə uyğun hesab edilməsi barədə müsahibə komissiyasının üzvləri arasında fikir ayrılığının yarandığı müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Cavadzadə Ceyhun Vüqar oğlunun 10 iyun 2023-cü il tarixli apellyasiya şikayəti qismən təmin edilsin və Dövlət Statistika Komitəsi aparatında Sosial statistika şöbəsinin Sosial müdafiə və səhiyyə statistikası sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün 2023-cü il iyun ayının 09-da keçirilən daxili müsahibənin nəticəsi ləğv edilsin, yeni tərkibdə müsahibə komissiyası yaradılsın və həmin namizədlə yenidən müsahibə keçirilsin.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür